

# Deloitte vergi və mühasibatlıq bülleteni

## Xəbərlər

- **Bir sıra bəyannamə, onların əlavə formaları və tərtib olunması qaydaları təsdiq edilib.** İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ("Dövlət Vergi Xidməti") tərəfindən bəzi bəyannamələr və hesabatların, onların əlavələrinin formalarına və tərtib olunması qaydalarında müvafiq dəyişikliklər təsdiq edilib.

Dəyişikliklər ilə aşağıdakı keçid vasitəsilə tanış ola bilərsiniz https://www.taxes.gov.az/az/post/3082

- **Əmtəə-nəqliyyat qaiməsinin və yol vərəqinin elektron qaydada tərtib edilməsi ilə bağlı elektron xidmət istifadəyə verilib.** https://www.taxes.gov.az/az/post/3126

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 oktyabr 2023-cü il tarixli 355 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron əmtəə-nəqliyyat qaiməsinin forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları"na uyğun olaraq elektron əmtəə-nəqliyyat qaiməsi istifadəyə verilib.

Əmtəə-nəqliyyat qaiməsi avtomobil nəqliyyatı ilə əmtəə təyinatlı yüklərin ölkədaxili daşınması zamanı rəsmiləşdirilən sənəddir. Elektron əmtəə-nəqliyyat qaiməsinin tərtibi zamanı yükgöndərən və ya yükalan gücləndirilmiş elektron imza vasitəsilə informasiya sisteminə daxil olaraq elektron əmtəə-nəqliyyat qaiməsini tərtib etməklə imzalayır və təsdiq üçün qarşı tərəfin elektron kabinetinə göndərir.

Əmtəə təyinatlı yüklərin elektron əmtəə-nəqliyyat qaiməsi ilə rəsmiləşdirilmədən daşınması İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati məsuliyyət yaradır və bu qaydaların pozulmasına görə 40 manat məbləğində cərimə nəzərdə tutulub.

Xidmətdən istifadə etmək üçün aşağıdakı link vasitəsilə portala daxil olaraq, elektron əmtəə-nəqliyyat qaiməsi bölməsini seçmək lazımdır: https://e-xidmet.ayna.gov.az/

- **Ödəniş rekvizitləri dəyişdirilib**

Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinin strukturunun təkmilləşdirilməsi məqsədilə Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Xəzinədarlıq İdarəsindəki məcburi dövlət sosial və işsizlikdən sığorta üzrə xəzinə hesabları bağlanılıb, 2 saylı Xəzinədarlıq İdarəsində yeni xəzinə hesabları açılıb.

Ətraflı məlumat üçün keçid:
https://www.taxes.gov.az/az/page/budce-rekvizitleri-barede-melumatin-verilmesi
https://www.taxes.gov.az/az/post/3102

- **Bank hesablarına sərəncamların tətbiq mexanizmi təkmilləşdirilib**

Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə Vergi Məcəlləsinə edilmiş mühüm dəyişikliklərdən birinə əsasən, sərəncam vergi ödəyicisinin bir neçə kredit və ya elektron pul təşkilatında olan hesablarına verildikdə və borc məbləği vergi ödəyicisinin hesablarından hər hansı biri üzrə dondurulduqda, ödəyicinin müraciəti əsasında həmin vəsaitin dondurulmasını təmin edən kredit və ya elektron pul təşkilatı bu barədə məlumatı vergi orqanına elektron qaydada təqdim edir. Bu halda həmin məlumat əsasında digər kredit və ya elektron pul təşkilatlarında olan hesablara verilən sərəncamların vergi orqanı tərəfindən bir iş günü müddətində geri qaytarılması təmin olunur.

Həmçinin, vergi ödəyicisinin eyni kredit və ya elektron pul təşkilatında olan bir neçə hesabına sərəncam verildikdə və borc məbləği bu hesablardan hər hansı biri üzrə dondurulduqda, vergi orqanı həmin kredit və ya elektron pul təşkilatının elektron müraciəti əsasında digər hesablar üzrə sərəncamların bir iş günü müddətində geri qaytarılmasını təmin edir.

Ətraflı məlumat üçün keçid:
https://www.taxes.gov.az/az/post/3056

- **Ezamiyyə normalarında dəyişiklik edilib**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 aprel 2024-cü il tarixli 200 nömrəli Qərarı ("Qərar") ilə ezamiyyə xərclərinin normalarında dəyişiklik edilib.

Bildirmək istərdik ki, ezamiyyə xərclərinin normaları Bakı şəhərində 125 manat, Naxçıvan şəhərində 100 manat, Gəncə və Sumqayıt şəhərlərində 95 manat, digər şəhər, rayon mərkəzləri, şəhər tipli qəsəbələr və kəndlərdə isə 90 manat məbləğində müəyyən edilib. Əlavə olaraq, yeni dəyişikliklərə görə, Azərbaycan Respublikasının ərazisində ezamiyyə xərclərinin müəyyən edilmiş bir günlük normasının 80 faizi əvəzinə 70 faizini mehmanxana xərcləri təşkil edir.

Bundan əlavə, daimi iş vaxtı yolda keçən və gediş-gəliş xarakteri daşıyan, növbə (vaxta) metodu ilə işləyən və çöl şəraitində çalışan (gündəlik iş vaxtı başa çatdıqdan sonra öz daimi yaşayış yerinə qayıtmaq imkanı olmayan) müəssisə, idarə və təşkilatların işçilərinə ezamiyyə xərcləri əvəzinə hər gün üçün əlavə vəsaitin verilməsi 20 manat məbləğində müəyyən edilib.

Onu da qeyd etmək istərdik ki, Qərara əsasən, müəyyən xarici ölkələrə ezamiyyə xərclərinin bir günlük normalarına da dəyişiklik edilib.

Qərarın təfsilatı ilə aşağıdakı keçid vasitəsilə tanış ola bilərsiniz:
https://nk.gov.az/az/senedler/qerarlar/ezamiyye-xerclerinin-normalari-haqqinda-azerbaycan-7959
https://e-qanun.az/framework/13154

- **Azərbaycan və Slovakiya arasında ikiqat vergitutmanın aradan qaldırılması haqqında saziş qüvvəyə minib**

Azərbaycan Respublikası və Slovakiya Respublikası arasında 7 iyun 2023-cü il tarixində imzalanan gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında saziş 1 aprel 2024-cü il tarixində qüvvəyə minib.

Ətraflı məlumat üçün keçid:
https://e-qanun.az/framework/55570

- **Türkiyə və Azərbaycan arasında ikiqat vergitutmanın aradan qaldırılması haqqında yeni saziş imzalanıb**

Türkiyə Respublikası və Azərbaycan Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında saziş 1994-cü ildə imzalanmışdır. Ötən dövr ərzində ölkələr arasında artan iqtisadi əlaqələr, beynəlxalq vergitutma tendensiyasında baş verən əsaslı dəyişikliklər, hər iki ölkə tərəfindən ikiqat vergitutmanın aradan qaldırılması haqqında Model Konvensiya layihələrinin yenidən hazırlanması yeni saziş layihəsi üzrə danışıqların aparılmasını zəruri edib.

Bununla bağlı, 7-9 fevral 2024-cü il tarixlərində Ankara şəhərində Türkiyə Respublikası və Azərbaycan Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında yeni saziş layihəsi üzrə danışıqlar baş tutub.

Danışıqların nəticəsi olaraq 19 fevral 2024-cü il tarixində Ankara şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında saziş" imzalanıb.

İmzalanmış yeni saziş həm Azərbaycan iqtisadiyyatına Türkiyə investisiyalarının cəlb edilməsi, həm də bir dövlətin müəssisələrinin və fiziki şəxslərinin digər dövlətdə iqtisadi fəaliyyətlə məşğul olduqları zaman onlar üçün əlverişli vergi mühitinin yaradılması baxımından əhəmiyyətli hesab edilir.

Ətraflı məlumat üçün keçid:
https://www.taxes.gov.az/az/post/3122

- **18 nömrəli Beynəlxalq Maliyyə Hesabatı Standartı təsdiq olunmuşdur**

9 aprel 2024-cü il tarixində 18 nömrəli Beynəlxalq Maliyyə Hesabatı Standartı – "Maliyyə hesabatlarının təqdim olunması və açıqlamaları" (IFRS 18 - Presentation and Disclosure in Financial Statements) Beynəlxalq Maliyyə Hesabatı Standartı Komitəsi tərəfindən təsdiq olunmuşdur. 2016-cı ildən başlayaraq tətbiqi müzakirə olunan IFRS 18, 1 nömrəli Beynəlxaq Mühasibatlıq Standartını – "Maliyyə hesabatlarının təqdim olunması" ("IAS 1 - Presentation of Financial Statements") əvəz edəcəq. IFRS 18 1 yanvar 2027-ci il tarixindən güvvəyə minir.

Ətraflı məlumat üçün keçid:
https://www.iasplus.com/en/standards/ifrs/ifrs-18
https://www.ifrs.org/news-and-events/news/2024/04/new-ifrs-accounting-standard-will-aid-investor-analysis-of-companies-financial-performance/

- **Satınalma müsabiqələrində iştirak üçün maliyyə hesabatlarının təqdim olunması tələb olunacaq**

Satınalma müsabiqələrində iştirak üçün maliyyə imkanlarının və ödəmə qabiliyyətini sübut edən sənəd kimi digər zəruri sənədlərlə yanaşı "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun hazırlanmış maliyyə hesabatlarının təqdim olunması tələb olunacaq. Müvafiq sənəd təqdim olunmadığı halda müəssisələr satınalmalardan kənarlaşdırılacaq.

Ətraflı məlumat üçün keçid:
https://etender.gov.az/xeberler-11/1daf061b-fa1a-4c9d-81c5-205860e6d0a3

## Xatırlatma

- **30 iyun - birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları təsisçiyə, habelə qanunla və nizamnamələri ilə müəyyən edilmiş şəxslərə təqdim edilməsi üçün son tarix.**
- **30 iyun – Ölkələrarası Hesabat barədə bildirişin vergi orqanlarına təqdim edilməsi üçün son tarix**

**Dövlət İmtahan Mərkəzi tərəfindən peşəkar mühasib sertifikatının alınma prosesi üzrə imtahan tarixləri açıqlanıb:**

**(https://dim.gov.az/upload/iblock/d66/d669d33759dafaaf8eb9564f2aa73bd6.pdf)**

**İmtahan tarixləri:**
**1-ci mərhələ - 28 iyul, 22 sentyabr, 3 noyabr**
**2-ci mərhələ - 11 avqust, 6 oktyabr, 1 dekabr**

## Bunu bilirdinizmi?

**İl ərzində yeni yaradılmış subpodratçılar üzrə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və onun strukturuna daxil olan müəssisələr, habelə hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər üzrə podratçılar və əməliyyat şirkətləri kimi şəxslərə mal təqdim etməyə, iş görməyə və xidmət göstərməyə başladığı ayadək əməkhaqqından gəlir vergisini güzəştli dərəcələrlə tətbiq edir.**

# Tədbirlərimiz və yeniliklərimiz

## Deloitte Azərbaycan Dövlət Vergi Xidmətinin konsaltinq şirkətləri ilə görüşündə iştirak edib.

Dövlət Vergi Xidmətində ölkənin aparıcı konsaltinq şirkətləri ilə görüş keçirilib. Görüş kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı və vergitutma sahəsində yaranan məsələlərin müzakirəsi məqsədi daşıyıb.

Tədbirdə Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva Dünya Bankının "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahələrdə təkmilləşmələrin həyata keçirilməsinə dair reallaşdırılan Yol Xəritəsi barədə məlumat verib.

Konsaltinq şirkətləri üçün biznesə başlama sahəsində icrası nəzərdə tutulan tədbirlərlə bağlı təqdimat edilib. Tədbirdə Deloitte şirkətinin nümayəndələri də iştirak etmişdir.





## Azərbaycan Peşəkar Mühasiblər Klubu

Deloitte Azərbaycan şirkətinin təşəbbüsü ilə yaradılmış Azərbaycan Peşəkar Mühasiblər Klubunun 2024-cü ilin ilk görüşü 30 yanvar 2024-cü il tarixində baş tutdu. Görüş "Büdcə prosesləri və onlara nəzarət" mövzusuna həsr olunmuşdur.

Tədbirin məruzəçisi, Deloitte Azərbaycan şirkətinin Risk Məsləhətləri Departamentinin Meneceri, Nərmin Əlizadə, öz geniş təcrübəsinə əsaslanaraq büdcə prosesi, büdcə növləri və praktikada istifadə olunan yanaşmalar haqqında danışdı.

Qeyd etmək istərdik ki, Azərbaycan Peşəkar Mühasiblər Klubu ölkəmizin aparıcı şirkətlərinin mühasibat uçotu sahəsi üzrə peşəkarlarını bir araya gətirmək, mühasibatlıq, vergi qanunvericiliyi audit və digər əlaqəli sahələr üzrə fikir mübadiləsi aparmaq, mühasibləri maarifləndirmək məqsədlərini daşıyır.










# “Accounting Bootcamp” layihəsi

15 mart 2024-cü il tarixində növbəti “Accounting Bootcamp” layihəsi elan olunmuşdur. Deloitte Azərbaycan şirkətinin təşəbbüsü ilə yaradılan proqramın əsas məqsədi tələbələrin mühasibatlıq sahəsində biliklərinin gücləndirilməsi və onların müvafiq sferada mütəxəssis kimi yetişdirilməsinə kömək etməkdir.

Layihənin seçim mərhələsi çərçivəsində, fevral və mart ayları ərzində ADA, Azərbaycan Dövlət İqtisad və Xəzər universitetlərində 80-ə yaxın tələbənin iştirakı ilə test imtahanları təşkil olunmuşdur. İmtahandan uğurla keçən namizədlər iki ay ərzində Deloitte Azərbaycan şirkətinin vergi və audit mütəxəssisləri tərəfindən təqdim olunacaq təlimlərdə iştirak edəcəklər.













# Xidmətlərimiz

## Vergi Məsləhətləri

1. Vergi öhdəliklərin yoxlanılması
2. Dövlət vergi orqanları tərəfindən keçirilən yoxlama zamanı dəstək
3. Yerli  və beynəlxalq vergitutma ilə bağlı məsləhət xidmətləri
4. Transfer qiymətləndirmə ilə bağlı xidmətlər

## Biznes Proseslərin həlli

**1. Maliyyə Evi**

- Mühasibatlıq
- Vergi hesabatlığı
- Maliyyə nəzarəti

**2. Texnologiya və Robototexnika Mərkəzi**

- Proqram təminatı vasitəsilə müxtəlif növ yüksək həcmli, daimi təkrarlanan əməliyyatların, robotlar tərəfindən qısa bir zamanda və səhvsiz icrası
- Maliyyə və mühasibatlıq proqramının seçimi, texniki tapşırıqların yazılması, və sınağ dövründə dəstək.

**3. Əmək haqqı hesablanması**



# Bizim Komanda:

## Vergi məsləhətləri



**Nuran Kərimov**
**İdarəedici Partnyor**
Tel: +994 (12) 404 12 10
Email: nkerimov@deloitte.az



**Nərmin Aslanova**
**Vergi üzrə Partnyor**
Tel: +994 (12) 404 12 10
Email: naslanova@deloitte.az

## Biznes proseslərin həlli



**Rəna Xəlilova**
**Vergi üzrə Direktor**
Tel: +994 (12) 404 12 10
Email: rkhalilova@deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə vəya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 457,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

8 Noyabr pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası

© 2024 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.